

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 209 (24.346)

*9 noyabr 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


# Azərbaycan xalqının çoxəsrlik tarixində bənzəri olmayan QƏLƏBƏ

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradda iştirak ediblər*



Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev paradda iştirak ediblər.

Dövlətimizin başçısı paradda çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

– Əziz hərbçilər, mən sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm.

**Hərbçilər:** – Sağ ol.

**Prezident İlham Əliyev:** – Üç il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi. Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir.

Azərbaycan xalqı uzun illər ərzində işğal dövründə bir nöqtəyə vururdu ki, tezliklə



bizim torpaqlarımız işğalçılardan azad edilsin. Biz bu müqəddəs günü hər gün, hər saat öz əməyimizlə, işimizlə yaxınlaşdırırdıq.

Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl – 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi.

Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq. Düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi.

Şuşa əməliyyatı, təbii ki, 44 günlük Vətən müharibəsi dövründə xüsusi yerə malikdir. Çünki çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər.

İyirmi il bundan əvvəl Prezident kimi öz fəaliyyətimə başlayanda əziz xalqıma bildirmişdim ki, biz torpaqlarımızı müharibə yolu ilə azad etməyə hazır olmalıyıq. O vaxt hələ sülh danışıqlarına müəyyən ümidlər var idi. Ancaq illər keçdikcə bu ümidlər tükənirdi. Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması ilə məşğul olmuş vasitəçilər faktiki olaraq vəziyyəti dondurmağa çalışırdılar, hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Ancaq Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmaq fikrində deyildi və mən dəfələrlə bunu müxtəlif kürsülərdən bəyan etmişdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəyik, danışıqlar nəticəsiz başa çatsa, güc tətbiq edərək beynəlxalq hüquq əsasında öz doğma torpaqlarımızı döyüş meydanında işğalçılardan azad edəcəyik. Əgər Ermənistan rəhbərliyi və onun arxasında o vaxt və bu gün duran bəzi xarici qüvvələr mənim sözlərimə qulaq assaydılar, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Mən dəfələrlə deyirdim, Ermənistan rəhbərliyinə müraciət edərək deyirdim ki, əgər siz bizim torpağımızdan çıxmasanız, döyüş mey-



danında bizimlə üz-üzə gələcəksiniz və sizin arxanızda kim istəyirsə dursun, bu bizi haqq yolumuzdan döndərə bilməz. 44 günlük Vətən müharibəsi bunu bir daha göstərdi.

Qırx dörd gün ərzində Azərbaycana müxtəlif yerlərdən, müxtəlif paytaxtlardan təzyiqlər göstərilirdi, təhdidlər səsləndirilirdi. Ancaq bizi haqq yolumuzdan heç kim göndərə bilməzdi və mən Vətən müharibəsi dövründə Azərbaycan xalqına müraciət edərək demişdim ki, düşmən bizə torpaqlarımızın azad olunmasının tarixini versin, o zaman biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Şuşa Zəfərindən sonra düşmən faktiki olaraq kapitulyasiyaya hazır idi və bir gün sonra kapitulyasiya aktına imza atdı, biz də müharibəni dayandırdıq. O vaxt bizim Silahlı Qüvvələrimiz Xankəndinin bir addımlığında idi. Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim bax, burada – Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi.

O vaxt mən heç şübhə etmirdim ki, gün gələcək və burada – Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaqdır. 44 günlük müharibənin 10 noyabr 2020-ci il tarixində dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Bu, Ermənistanın imzaladığı kapitulyasiya aktının tərkib hissəsi idi və bizim tələbimiz idi. Ermənistan bu tələbi yerinə yetirməyə məcbur olmuşdu. Çünki döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin gücünü və Azərbaycan siyasi rəhbərliyinin siyasi müstəvidə iradəsini görmüşdür. Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi.

İkinci Qarabağ müharibəsindən sonra biz bir gün dayanmadan ordu quruculuğu prosesini sürətləndirirdik və bunu gizlətmirdik. Dərhal Qarabağ bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda uzun illər ərzində işğal altında qalmış Azərbaycan-Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində Azərbaycan-Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq. Nə üçün biz bunu edirdik? Çünki biz bilirdik ki, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Biz bilirdik ki, Ermənistanın arxasında dayanan və onları bizə qarşı hərəkətə təhrik edən xarici qüvvələr onlara yenə də təxribatçı siqnallar verəcəklər. Ona görə biz öz sərhədimizi qorumalı idik və keçirilmiş bir neçə hərbi əməliyyat nəticəsində bu gün Azərbaycan-Ermənistan sərhədində vəziyyət bizim nəzarətimizdədir. Bununla bərabər, Qarabağ bölgəsində həyata keçirilmiş bir neçə hərbi əməliyyat bu bölgədə də əlverişli yüksəkliklərə sahib olmaq üçün bizə şərait yaratdı. Eyni zamanda bu əməliyyatlar Ermənistan siyasi rəhbərliyinə də bir siqnal idi ki, siz kapitulyasiya aktında təsbit edilmiş bütün müddəaları icra etməlisiniz və ilk növbədə, öz silahlı qüvvələrinizi Qarabağdan çıxarmalısınız, bu sizin öhdəliyinizdir. Amma həyatda biz bunun əksini gördük, nəinki Ermənistan silahlı qüvvələri çıxarılmadı, əksinə, daha çox qüvvə göndərilmişdi. O vaxt Laçın-Xankəndi yolu hələ bizim nəzarətimizdə deyildi, silah-sursat, minalar gətirilmişdi və Ermənistanın siyasi rəhbərliyi Qarabağdan öz silahlı qüvvələrini çıxarmaq istəmirdi.

Son üç il ərzində keçirilmiş hərbi əməliyyatlar, o cümlədən Fərrux əməliyyatı, Sarıbaba-Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar bizim strateji mövqelərimizi böyük dərəcədə yaxşılaşdırmışdır. Eyni zamanda Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan torpağıdır və burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız. Əgər o vaxt mənim sözümə baxsaydılar, sentyabr ayında keçirilmiş antiterror əməliyyatına ehtiyac qalmazdı. Onların bütün bəlalarının səbəbkarları elə onların özləridir. Onların bəlaları təkcə üç il bundan əvvəl başlamayıb, hələ 1990-cı illərin əvvəlində başlayıb. O vaxt Azərbaycanın çörəyini yemiş, Azərbaycanın suyunu içmiş nankor kütlə Azərbaycana qarşı, bax, bu meydanda ərazi iddiası qaldırmışdır. Bax, bu binada – Azərbaycan dövləti tərəfindən vaxtilə inşa edilmiş binada Azərbaycana qarşı məkrli planlar hazırlanırdı. Erməni xalqının bəlalarının səbəbkarları Ermənistana rəhbərlik etmiş bütün şəxslərdir. Onlar hesab edirdilər ki,

*Ardı 2-ci səhifədə*

bizim torpaqlarımızı əbədi işğal altında saxlayacaqlar. Özləri buna o qədər inanmışdılar, xarici tərəfdaşları da inandırmağa çalışırdılar ki, onların güclü orduları var, onların güclü potensialı var, güclü himayədarları var və Azərbaycan heç vaxt torpaqları hərbi yolla azad etməyə cürət etməyəcək. Onların dəyirmanına su tökənlər, bu gün də onların arxasında dayanmış bəzi ölkələr bu məsuliyyəti onlarla 100 faiz bölüşürlər.

Biz isə deyirdik ki, heç vaxt bu vəziyyətlə barışmayacağıq və bunu gizlətmirdik. Bizə nə qədər deyilmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin hərbi həlli yoxdur. Mən isə deyirdim ki, sülh yolu ilə bu məsələ həll olunmasa, bizim başqa çarəmiz qalmayacaq və 44 gün ərzində göstərdiyimiz qəhrəmanlıq, peşəkarlıq, əfsuslar olsun ki, Ermənistan rəhbərliyinə dərs olmadı.

Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir və bunun səbəbkarları bu gün, bax, bu meydanda dayanan bizim igidlərimizdir və on minlərlə Azərbaycan hərbçiləridir. Onların qanı-canı bahasına biz bu Qələbəni əldə etmişdik.

Mən bir daha demək istəyirəm ki, biz 20 il ərzində bu günə doğru gedirdik, hazırlıq işləri gedirdi, beynəlxalq hüquq müstəvisində Azərbaycan mövqeləri möhkəmləndirilirdi. Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın.

Əlbəttə ki, ordu quruculuğu birinci nömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi – budur, qələbəyə aparan əsas amillər. Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir. O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərmişik. Ən çətin, əlverişsiz coğrafi vəziyyətdə altı müdafiə zolağını yararaq, döşənmiş bir milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir. Əziz şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və biz bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərmişdik. Yəni hazırlıq işləri apararkən, bax biz bu günü gözləyirdik. Mən bu 20 il ərzində heç vaxt şübhə etmirdim ki, bu gün gələcək və Xankəndi şəhərində Azərbaycan Bayrağı altında hərbi parad keçiriləcək.

Qırx dörd günlük müharibə zamanı çoxlu xarici media nümayəndələrinə müsahibələr verərək, təbii ki, bizim planlarımız haqqında mən danışa bilməzdim. Halbuki suallar demək olar ki, təkrarlanırdı. Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, nə qədər düzgün addım idi. Ancaq o gündən, bax bu günə qədər – sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz – həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün.

Dörd il bundan əvvəl, bax, qarşıdakı Xankəndi şəhər stadionunda Ermənistanın baş naziri çıxış edərkən təkəbbürlə demişdi: "Qarabağ Ermənistandır və nöqtə". Biz ona, onun kimilərinə və onların arxasında duranlara döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, o, səhv yolda idi. Biz göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin. Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin.

Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada Müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm. Yəni biz bütün vəzifələri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın.

Mən bir daha, əziz hərbçilər, sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm.

**Hərbçilər:** – Sağ ol.

**Prezident İlham Əliyev:** – Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!

**Hərbçilər:** – Qarabağ Azərbaycandır!

## Prezident İlham Əliyev Füzuli rayonunda Qarğabazar kəndinin təməlini qoyub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Füzuli rayonunda Qarğabazar kəndinin təməlini qoyub.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov kənddə görüləcək işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, kəndin inzibati ərazisinə Yal-Pirəhmədi və Sərdarlı kəndləri də daxildir. Kəndə 2 min nəfərin köçürülməsi planlaşdırılır. Burada, ümumilikdə, 527 fərdi ev tikiləcək.

Qeyd edildi ki, kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, mədəniyyət evinin, kafe-restoranın, mərasim evinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 384 şagird yerlik orta məktəbin, 128 yerlik uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, bazar kompleksinin, kitabxananın, ticarət obyektinin, qonaq evinin, məscidin və digər zəruri obyektlərin tikilməsi planlaşdırılıb.

Prezident İlham Əliyev Qarğabazar kəndinin təməlini qoydu.

Məlumat verildi ki, kənddə tarixi-memarlıq abidələri – Şah Abbas karvansarası və Şah Abbas məscidi də bərpa olunacaq.

**AZƏRTAC**

## Naxçıvanda ilk şəhidlər abidə-memorial kompleksi Babəkdə istifadəyə verildi

Noyabrın 8-də, Zəfər Günündə Babək rayonunda şəhidlər abidə-memorial kompleksinin açılışı olub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, rayon ictimaiyyətinin, şəhid ailələri və qazilərin iştirak etdiyi açılış mərasimində əvvəlcə kompleksin ərazisindəki abidə ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himnimiz səsləndirilib.

Sonra kompleksin ərazisindəki "Tarix yazan qəhrəmanlar" guşəsinə baxış olub.

Mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 8 Noyabrı müasir Azərbaycan tarixinin əlamətdar günü kimi dəyərləndirib.








Səlahiyyətli nümayəndə vurğulayıb ki, tarix boyunca soydaşlarımız öz torpaqlarından didərgin salınmağa məcbur edilib. 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqavilələri, 1917-ci ildə Sovet İmperiyasının qurulması ilə Qərbi Azərbaycan, Zəngəzur və İrəvan bugünkü Ermənistana hədiyyə edilib. 1988-ci ildə isə belə köç dalğasının ən böyüyünü yaşadıq. Minlərlə ailə 30 il doğma el-obasının nisgilini yaşadı.

Fuad Nəcəfli vurğulayıb ki, Qarabağa edilən hücumların ən dəhşətlisi məhz o illərdə Naxçıvana da olmuşdu. Lakin 1990-1993-cü illərdə Naxçıvanda artıq bu prosesə son qoyuldu. Bu prosesə son qoymaq cəsarəti isə yalnız Ulu Öndərimiz Heydər Əliyevə məxsus idi. Şuşadan xalqına müraciət edən Müzəffər Ali Baş Komandanımızın sözləri ilə desək, **Heydər Əliyev Naxçıvanı işğaldan qorudu.**

Sevindirici haldır ki, artıq biz bu nisgili yaşamırıq. Heydər Əliyev yolunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandanımız çox çətin bir tarixi dövrdə xalqımıza Böyük Zəfəri qazandırdı. Heç vaxt ümidini və inamını itirməyən Prezident İlham Əliyev ötən 20 ildə Azərbaycan iqtisadiyyatını daha da dirçəltdi, ordumuzu ən qüdrətli ordulardan birinə çevirdi, ən müasir silah və texnikalarla döyüş qabiliyyətini yüksəltdi. Doğrudur, digər qonşu ölkələrin orduları da müasir texnikalara malikdir. Lakin bizim Şanlı Ordumuzu fərqli edən, qələbəyə ruhlandıran ən əsas amil həm də döyüşlərdə şücaət göstərən qəhrəman övladlarımızdır. Məhz onların sayəsində illərlə həsrətində olduğumuz Zəfər tarixini qeyd edirik. Bundan sonra bu zəfəri qürurla və böyük quruculuq işləri ilə qeyd edəcək, gələcək nəsillərə aşılayacağıq. Sevinirik ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva ilə bu Tarixi Zəfəri birgə yaşayırıq. Dünya var olduqca xalqımız bu şanlı tarixi qeyd edəcək, qürurla yaşayacaq.

Fuad Nəcəfli hər kəsi Zəfər Günü münasibətilə təbrik edib, şəhidlərə Allahdan rəhmət, qazilərə cansağlığı arzulayıb.

Mərasimdə şəhid Elbrus Əliyevin atası Əkbər Əliyev və qazi Abbasəli Tarverdiyev çıxış edərək Zəfər Günü münasibətilə təbriklərini çatdırıb, şəhidlərin xatirələrinin belə gözəl ünvanda əbədiləşdirildiyinə, göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli şəhid ailələri və qazilərlə görüşüb, onlarla səmimi söhbət edib.

Mərasim Naxçıvan Qarnizonu Hərbi Orkestrinin ifasında marş sədaları ilə başa çatıb.

Qeyd edək ki, şəhidlər memorial-abidə kompleksi Babək şəhərinin mərkəzində 2500 kvadratmetr ərazidə salınıb. Buradakı abidənin hündürlüyü 9, yerləşdiyi ay-ulduz platformasının diametri 12 metrdir. Memorial guşədə

Ardı 3-cü səhifədə





Babək rayonundan olan 64 şəhidin fotoları və onlar haqqında məlumatlar yerləşdirilib. Kompleksin ərazisində yaşıllıq sahələri də salınıb.

**“Şərq qapısı”**

# Naxçıvanda Ulu Öndərin 100 illiyinə və Zəfər Gününə həsr olunmuş ağacəkmə aksiyası keçirilib





Noyabrın 8-də Ulu Öndər Heydər Əliyevin 100 illiyinə və Zəfər Gününə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.

Bu günə töhfə vermək, Ümummilli



Liderimizin, Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək məqsədilə keçirilən aksiyada Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, özəl təşkilatların rəhbərləri, qazilər, ekologiya könüllüləri, eləcə də ictimaiyyət nümayəndələri olmaqla, 500 nəfər iştirak edib.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli şanlı tariximizə möhtəşəm və qızıl hərflərlə yazılan Zəfər Günü münasibətilə təbriklərini çatdırıb.

Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xanlar Mustafayev səlahiyyətli nümayəndəyə cari ildə muxtar respublika ərazisində nəzərdə tutulan və 2023-cü ilin yaz mövsümündə icra olunan yaşıllaşdırma tədbirləri barədə ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, bu ilin payız əkini mövsümündə muxtar respublika ərazisində 244 min tinglə, 2400 kiloqram isə toxumla əkin işləri həyata keçiriləcək.

Sonra ağacəkmə aksiyasına start verilib. İştirakçılar Naxçıvan-Çalxanqala avtomobil yolunun sağ kənarında 4,5 hektar sahədə 1600 tut, 1000 püstə, 100 həmişəyaşıl ting və 120 gül kolu əkiblər. Tut tinglərinin əkilməsində məqsəd muxtar respublikada baramaçılığın



inkişaf etdirilməsinə töhfə verməkdir.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ağacəkmə aksiyasında iştirak edən qazilərlə görüşüb, onlarla söhbət edib, qayğıları ilə maraqlanıb.

Ekologiya könüllüləri ilə də görüşən səlahiyyətli nümayəndə gənclərə yerinə yetirdikləri missiyanın əhəmiyyətindən danışıb, işğaldan azad edilən ərazilərimizdə ekofəalların xüsusi aktivliyindən söz açıb.

Aksiyada könüllülərin iştirakı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan fləşmob təşkil olunub. İki yüzə yaxın gənc böyük coşqu və qürur hissi ilə “100 il” yazısını nümayiş etdirib.

Sonda səlahiyyətli nümayəndə Fuad Nəcəfli kütləvi informasiya vasitələrinə müsahibə verib.

**“Şərq qapısı”**

# Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli:
## *“Əminik ki, Azərbaycanın gələcəyi daimidir, müstəqilliyi dönməzdir, əbədidir”*

Naxçıvanda keçirilən Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə və Zəfər Gününə həsr olunmuş ağacəkmə aksiyasının sonunda ***Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli*** jurnalistlərə müsahibə verib. Səlahiyyətli nümayəndə deyib:

– Hər birinizi bugünkü şanlı gün münasibətilə təbrik edirəm. Biz 30 ildən çox müddətdə məşəqqətli dövr yaşamışıq və bu günün həsrətini intizarla gözləmişik. Xalqımız həmişə Ulu Öndər Heydər Əliyevin irsinə sadiq olub və bu irsin qələbə



gətirəcəyinə inanıb. Ulu Öndərin ardıcıllarından biri kimi biz də bu gün Azərbaycanın gələcəyi ilə bağlı addımlar atmalıyıq. Müzəffər Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin Xankəndidə ucaltdığı bayraqda Azərbaycanın gələcəyinin daimi, müstəqilliyinin dönməz, əbədi olduğunu bütün dünyaya göstərdi. Bugünkü aksiyada biz Naxçıvanda Azərbaycanın gələcəyinə yönəlik addım atırıq. Biz ekologiyamızda mövcud olan, son dövrlərdə yaşanan ağrılı, qeyri-mütərəqqi addımları görürdük və ərazinin eroziyaya uğramasının qarşısını almaq üçün yaşıllaşdırma aksiyasına başladıq. Aksiyanı həyata keçirməzdən öncə torpaqların analizi götürüldü və uyğun bitkilər seçildi. Bu gün artıq gənclərimizlə bərabər, Naxçıvan Muxtar Respublikasının əhalisi ilə birlikdə bu aksiyanı həyata keçiririk. İnanırıq ki, gələcək iqlim dəyişiklikləri ilə mübarizədə bu aksiyanın da müəyyən rolu olacaq. Bu proses davamedici olmalıdır və bütün respublika ərazisində tətbiq olunmalıdır.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası

*Ardı 4-cü səhifədə*

Prezidentinin səlahiyyətli nümayəndəsi gənclərin ölkənin və muxtar respublikanın ictimai-siyasi həyatındakı, firavan gələcəyindəki rolundan da bəhs edib:

– Gənclərdən aldığımız enerji, onların sabaha inamı bizi daha inamla, daha ümidlə çalışmağa sövq edir. Azərbaycan gənclərini qarşıda daha işıqlı sabahlar gözləyir. Çünki Qarabağ problemi artıq geridə qalıb. Bizim gənclərimizi mütərəqqi düşünməyə vadar edəcək bir dönəm başlayır. Quruculuq prosesi başlayır. Gənclərimizdəki inam, onların bilik və bacarıqları, əlbəttə ki, təqdirəlayiqdir. Mən Azərbaycan gənclərinin gələcəyinə inanıram.

Dövlət başçımızın sosial siyasətinin prioriteti olan şəhid ailələrinə və qazilərə dövlət qayğısının muxtar respublikada da diqqətdə saxlanıldığını bildirən səlahiyyətli nümayəndə deyib:

– Muxtar respublikamızda şəhid ailələri və qazilərlə görüşlər mütəmadi xarakter daşıyır. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi institutunun yaradıldığı ilk gündən şəhid ailələri və qazilər əhalinin qayğı ilə əhatə olunmuş təbəqəsi arasındadır. Yaranan reallıq bizi sövq edir ki, onlara daha yaxından xidmət edək. Onlarla görüşlərimizdə hər dəfə onların problemləri, bizim qarşımızda qoyduqları çağırışlar hər bir dövlət məmuru tərəfindən prioritet məsələ kimi qəbul edilməlidir. Muxtar respublikamızda bu qəbildən olan insanlara hərtərəfli dövlət qayğısı davamlı xarakter alacaq.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli müsahibənin sonunda Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə təbriklərini çatdırıb, Azərbaycanın olduqca şanlı bir dövr yaşadığını və bu dövrə şahidliyin indiki nəslə qismət olmasının qürurvericiliyindən danışıb:

– Qarabağ konflikti başlayan vaxt biz çoxumuz gənc idik və yaxud da uşaqlıq dövrünü yaşayırdıq. İstər-istəməz insanlarda ümidsizlik, sabaha inamsızlıq baş qaldırırdı. Əlbəttə ki, 1993-cü ildə Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev Azərbaycan Prezidenti seçildikdən sonrakı dövrə xalqın inamı bizim gəncliyimizi də, o dövrün uşaqlarını da daha mütərəqqi, daha inamlı düşünməyə vadar etmişdi. Amma ona qədərki dövr, həqiqətən, ağrı-acılı idi. Biz olduqca ağır bir dönəm yaşamışdıq. Biz Xocalı faciəsini yaşadıq. Biz Qarabağda erməni zülmkarlarının beynəlxalq hüquqa sığmayan hərəkətlərinin şahidi olmuşduq. Bütün bunlar bizim hafizələrimizdə, qan yaddaşımızda daim yaşayacaqdır. Biz heç bir zaman müharibəni, onun yaratdığı fəsadı, faciələri istəmirik. Biz bunları hər zaman özümüzdən uzaq tutmağa çalışacağıq. Ən son gücümüzədək sülhün olması üçün çalışacağıq. Əlbəttə ki, biz bunu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dəfələrlə bəyan etdiyinin açıq şahidi olmuşduq ki, əgər lazım olarsa, biz bu problemi hərbi yolla da həll edəcəyik. Həmişə buna hazırlaşmaq lazımdır. Ancaq Azərbaycan sülhsevər dövlətdir. 30 ildir, bizim ümidsiz sülh danışıqlarına getməyimiz göstərib ki, biz sülhün əldə olunmasına hazırıq. Lakin bilirsiniz, Ermənistandakı yeni siyasi hakimiyyətin yeni iddiaları, yeni müharibə, yeni torpaqlar iddiası, Qarabağın onlara aid olması ilə bağlı sərsəm iddialar Azərbaycanı müharibəyə məcbur etdi. Ancaq hər şey geridə qalıb, quruculuq başlayıb. Hər kəs bu quruculuqda yaxından iştirak etməlidir.

***Zəfər bayramınız mübarək olsun!***

**✍ Bülbül QULİYEVA**

# Naxçıvanda Zəfər Günü böyük coşqu ilə qeyd edilib



Noyabrın 8-də Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinin qarşısında Zəfər Günü münasibətilə “Milli qürur günümüz” adlı konsert proqramı və möhtəşəm atəşfəşanlıq keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, muxtar respublika sakinləri, eləcə də qədim diyarımızın qonaqları konsertə baxıblar.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə baş tutan konsert başlanmazdan əvvəl Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının və Naxçıvan Qarnizonunun Hərbi Orkestrinin təqdimatında vətənpərvər ruhlu əsərlər səsləndirilib. Qələbə ovqatı və ruh yüksəkliyi ilə təqdim edilən mahnılar tamaşaçıların alqışları ilə müşayiət olunub.

Səlahiyyətli nümayəndə konsertdə iştirak edən uşaqlarla xatirə fotosu çəkdirib.

Konsertdə Xankəndi şəhərində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirak etdiyi Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paraddan görüntülər təqdim edilib.

Sonda gerçəkləşən möhtəşəm atəşfəşanlıq minlərlə muxtar respublika sakini tərəfindən maraqla izlənilib.

**“Şərq qapısı”**









*9 Noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür*

# Zəfər rəmzi, qürur mənbəyimiz üçrəngli bayrağımız tarixi torpaqlarımızda əbədi dalğalanır!

Ümummilli Liderimiz Heydər Əliyev Dövlət Bayrağımızı səciyyələndirərək demişdir: ***“Azərbaycan Bayrağı, sadəcə, bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin”.*** Üçrəngli bayrağımız xalqımızın milli mövcudluq nişanəsi sayılır, dövlətimizin gücünü, qüdrətini, xalqımızın milli birlik və həmrəyliyini nümayiş etdirir.

Azərbaycan Respublikasının Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib və iclasın keçirildiyi Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının binası üzərində qaldırılıb. Dövlət statusuna malik bu bayraq sovet Rusiyası qoşunlarının Azərbaycanı işğal etməsi nəticəsində Azərbaycan parlamentinin binası üzərindən endirilib. Həmin bayraq bir də 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı olaraq təsdiq edilib. Bu sessiya həm də müstəqilliyə gedən yolda tarixi qərarların – “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikasının Ali dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” qərarların qəbul edilməsi ilə əlamətdar olub. Bunların içərisində “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” qərar mühüm əhəmiyyət kəsb edirdi. Bununla əlaqədar Ümummilli Lider Heydər Əliyevin imzaladığı Ali Məclisin qərarında deyilirdi: “Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

*1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2) Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və Gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının, bütövlükdə, Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin”.*

1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikasının Ali Soveti üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edib. 1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət Bayrağını bərpa edib.

Ümummilli Liderimiz Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Dövlət Bayrağı

*Ardı 5-ci səhifədə*



milli suverenliyin simvolu kimi təsdiq olunub, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında normativ aktlar qəbul edilib. 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasının 75-ci maddəsinin birinci bəndində qeyd olunur ki, hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə – bayrağına, gerbinə və himninə hörmət etməlidir. Bundan əlavə, Ulu Öndər Heydər Əliyevin 1998-ci il 13 mart tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" Sərəncamı dövlət atributlarının təbliği baxımından mühüm əhəmiyyət daşıyıb.

Ulu Öndər yolunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvandan başlanan həmin tarixi hadisəni yüksək qiymətləndirərək demişdir: ***"Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda Dövlət Bayrağı kimi təsdiq edildi. Eyni zamanda ovaxtkı Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı və tələb edildi ki, bu bayraq Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilsin... Məhz Xalq Cümhuriyyətinin bayrağının Dövlət Bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir".*** 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilib. Dövlətimizin başçısı Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədilə 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb, bununla da hər il noyabr ayının 9-u "Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü" kimi qeyd edilir. Azərbaycan dövlətinin suverenliyinin rəmzi olan bayrağımızdakı mavi rəng Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng isə İslam sivilizasiyasına mənsubluğunu ifadə edir.

2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının, 2014-cü il noyabrın 17-də Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin təntənəli açılış mərasiminin keçirilməsi üçrəngli bayrağımız, qədim tariximiz haqqında hərtərəfli məlumat əldə etməyə imkan verir. Naxçıvan şəhərindəki Bayraq Meydanında yaradılmış unikal quruluşa malik Bayraq Muzeyində Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" Qərarın surəti və həmin tarixi günə aid fotoşəkillər, tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları dövlətçilik tariximizi öyrənməyə geniş imkanlar yaradır, gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə edilməsi işində mühüm rol oynayır. Onu da qeyd edək ki, bu gün muxtar respublikanın bütün rayonlarında Bayraq meydanları istifadəyə verilib.

Ölkə Prezidenti cənab İlham Əliyev Dövlət Bayrağının xüsusi əhəmiyyətini vurğulayaraq deyib: ***"Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət Bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət Bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".*** Dövlətimizin başçısı verdiyi vədlərə, sözünə sadiq qaldı. Bu gün Azərbaycanın Dövlət Bayrağı Qarabağda, Xankəndidə, Şuşada, bir sözlə, ölkəmizin bütün ərazisində qürurla dalğalanır. 2020-ci ildə Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 44 gün ərzində işğal altındakı torpaqlarımızı 30 illik əsarətdən, işğaldan qurtararaq ərazi bütövlüyümüzü bərpa etdi. 2020-ci il noyabrın 8-də – Dövlət Bayrağı Günü ərəfəsində Şuşanın işğaldan azad olunması isə böyük Zəfərin əsası olmaqla xalqımıza möhtəşəm qürur və sevinc yaşatdı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 2021-ci il yanvarın 15-də Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı. Bu il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağının ucaldılması isə növbəti dəfə dövlətimizin, Azərbaycan Ordusunun gücünü, qüdrətini bütün dünyaya göstərdi. Dövlətimizin başçısı Xankəndidə çıxışı zamanı dedi: ***"Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq".*** Bu şanlı səhifələr Azərbaycan tarixinə qızıl hərflərlə yazılır.

Xalqımızın, bütün dünya azərbaycanlılarının azadlığının, şərəf və ləyaqətinin, milli birliyinin ifadəsi, and yerimiz bayrağımız bu gün ən yüksək zirvələrdə dalğalanır. Üçrəngli bayrağımız həm də onu yüksəklərə ucaldan, doğma Vətəni uğrunda gözünü qırpmadan canını fəda edən şəhidlərimizin ruhunun daşıyıcısıdır. Bu gün hər bir azərbaycanlı Zəfərimizin nişanəsi, qürur mənbəyimiz bayrağımıza hörmət və sevgi göstərir, onu qorumağı və həmişə uca tutmağı müqəddəs borcu bilir, bir bayrağın altında sıx birləşərək onu daha uca zirvələrə qaldırır.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Konstitusiya – demokratik cəmiyyətin hüquqi əsası

*Konstitusiya dövlətin əsas strukturunu, prinsiplərini və fəaliyyət qaydalarını göstərən və əsas insan hüquqlarını təmin edən üstün hüquqi normalardan ibarətdir. Konstitusiya gələcək qanunların riayət etməli olduğu təməl prinsipləri göstərir. Heç bir qanun və ya digər qayda Konstitusiyaya zidd ola bilməz. Bu baxımdan Konstitusiya bir ölkənin ali və ya Əsas Qanunudur. Konstitusiyanın iki əsas üzərində qurulduğunu deyə bilərik. O, bir tərəfdən dövlətin quruluşunu və fəaliyyətini və onların əsas prinsiplərini müəyyən edir, orqanların bir-biri ilə münasibətlərini idarə edir, digər tərəfdən, hüquq və azadlıqları müəyyənləşdirib özündə əks etdirir.*

İnsan hüquqlarının təmin edilməsi konstitusionalizmin əsas elementlərindən biri olmaqla əvəzolunmazdır. Konstitusiyalarda təsbit edilən əsas hüquqlar siyasi sferada öz əksini tapmış fərdin öz müqəddəratını təyinetmə idealının təminatıdır. İnsan hüquqları fərdlərə hər cür təzyiqdən qorunaraq, özünü reallaşdırmaq üçün toxunulmaz sahə yaradır. Bu həmçinin onların başqaları ilə könüllü fəaliyyətlə məşğul olmaq potensialını təmin edir, onların dövlət idarəçiliyində iştirakına zəmin hazırlayır. Bir xalqın konstitusiya qəbul etmək niyyəti o xalqın milli, beynəlxalq siyasətin və mədəni mühitin tələblərinə uyğun olaraq cəmiyyəti yenidən qurmaq istəyidir.

Azərbaycan xalqı 1918-ci ildə öz tarixində ilk dəfə demokratik əsaslarla dövlət yaratmağa nail olsa da, bu dövlətin cəmi 23 ay davam edən qısa ömrü Azərbaycan Xalq Cümhuriyyətinin Konstitusiyasının qəbul edilməsi üçün kifayət etmədi. Müstəqilliyimizin bərpasınadək olan 70 illik dövrdə artıq 3 Konstitusiya qəbul olunmuş, lakin həmin konstitusiyalar ittifaq konstitusiyalarına uyğun hazırlanmaqla dövrün siyasi rejiminin ideologiyasını əks etdirmişlər. Dövlətimiz müstəqillliyini bərpa etdikdən sonra isə demokratik və hüquqi dövlət quruculuğunun tələblərinə cavab verən yeni bir Konstitusiyanın qəbulu zəruri idi. Milli Məclisin 1995-ci il 02 may tarixli Qərarı ilə isə Prezident Heydər Əliyevin Sədrliyi ilə Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olundu. Ümummilli Lider konstitusiya layihəsinin hazırlanması üzrə komissiyanın sədri kimi yeni Konstitusiyanı belə təsvir edirdi: ***"Konstitusiya, birinci növbədə, dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir".*** Layihə mətbuatda dərc olunaraq ümumxalq müzakirəsinə verilmiş, dərc olunan məlumatda həmçinin göstərilmişdi ki, bütün dövlət orqanlarının, təhsil müəssisələrinin, siyasi partiyaların ictimai birliklərin və vətəndaşların nəzərinə çatdırılır ki, yeni Konstitusiyaya aid qeyd və təkliflərini, Konstitusiya layihəsini hazırlayan Komissiyaya təqdim etsinlər. Mətbuatda çap olunan həmin məlumatdan sonra Komissiyaya 3 mindən artıq təklif daxil olmuş, həmin təkliflər İşçi qrup tərəfindən öyrənilmiş və onların bir çoxundan Konstitusiya layihəsinin işlənməsində istifadə olunmuşdur. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarılmış, referendumda seçicilərin 86 faizi iştirak edərək 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs vermişdir. Əsas Qanun noyabrın 27-də hüquqi qüvvəyə minmişdir.




İlk dəfə olaraq Konstitusiyada hakimiyyətin yeganə mənbəyinin xalq olması prinsipi deklarativ şəkildə bəyan edildi. Həmçinin hakimiyyət bölgüsü – qanunverici, icra və məhkəmə hakimiyyətləri kimi öz təsbitini taparaq onların səlahiyyətləri, hüquq və vəzifələri dəqiq müəyyən olundu.

Hüquqi, demokratik və vətəndaş cəmiyyətli dövlət quruculuğunda inamlı və qətiyyətli addımlarını atan müstəqil Azərbaycan Respublikasının 18 oktyabr 1991-ci ildə qəbul etdiyi "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" dan irəli gələn müddəalar 1995-ci ildə qəbul olunmuş ilk milli Konstitusiyamızın da başlıca qayəsini təşkil etdi. Bunu da qeyd etmək kifayətdir ki, Konstitusiyamızın 158 maddəsindən 48-i insan hüquq və azadlıqlarına və onların təminatına həsr edilmişdir. Yeni Konstitusiyamız insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi elan etmiş, ölkədə aparılan irimiqyaslı islahatlar üçün möhkəm qanunvericilik bazası yaratmağa təkan vermişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında müasir sivil cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən mütərəqqi ideya və dəyərlər geniş şəkildə öz əksini tapmış, insan hüquqlarının və azadlıqlarının təminatları müəyyən edilmişdir. Dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunun aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi ülvi niyyətlərin bəyan edilməsi Konstitusiyamızın ali dəyərlərini əks etdirir.

Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. İstinadsız olaraq hakimiyyətin bütün qollarına şamil edilən bu öhdəlik insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək, onları müdafiə etmək və dəstəkləmək, eləcə də həyata keçirmək vəzifələrini ehtiva edir.

İnsan hüquqlarının təmin edilməsi ölkəmizdə gedən böyük demokratik proseslərin tərkib hissəsi kimi daim dövlətin diqqət mərkəzində olan məsələlərdən biridir. Bu hüquqlar gündəlik həyatımızda öz real təminatını almaqla yanaşı, həm də hüquqi-normativ sənədlərdə öz əksini tapır.

Ölkəmizin ərazisində yaşayan bütün vətəndaşların toxunulmazlıq hüququ Konstitusiya ilə tanınır və dinindən, dilindən, irqindən asılı olmayaraq, ölkə vətəndaşları qanun qarşısında bərabər tutulur. Bununla belə Konstitusiya vətəndaşların dövlət və cəmiyyət qarşısında məsuliyyətlərini özündə əks etdirir. Belə ki, hər bir vətəndaşın hüquq və azadlıqlarının başladığı yerdə qurtarır. Heç bir şəxsin öz toxunulmazlıq hüququndan istifadə edərək digərlərinin hüquqlarını pozmasına yol verilmir.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu nəticəsində ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatları aparılmış, həmin islahatlar nəticəsində müstəqil məhkəmə hakimiyyətinin yaradılması üçün zəruri qanunvericilik bazası formalaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis edilmişdir ki, bu da vətəndaşların qanuni maraq və mənafelərinin ədalət mühakiməsi yolu ilə birinci instansiya, apelyasiya və kassasiya instansiyası məhkəmələri tərəfindən daha etibarlı şəkildə müdafiə olunmasına öz müsbət təsirini göstərmişdir. Təsadüfi deyil ki, Konstitusiyada təsbit edilmiş hakimiyyətlərin bölgüsü prinsipinə müvafiq olaraq məhkəmə hakimiyyəti orqanları həm də keyfiyyətcə yeni funksiyalar əldə etmişdir.

İlk dəfə olaraq Azərbaycan Konstitusiyasının "məhkəmə hakimiyyəti" fəslində demokratik təsisat olan Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında müddəa öz əksini tapdı. Konstitusiyanın 130-cu maddəsində Konstitusiya Məhkəməsinin say tərkibi, onun formalaşdırılması qaydası, vəzifələri və səlahiyyətlərinin əsas prinsipləri qeyd olundu.

Konstitusiyamızın gətirdiyi digər yeniliklərdən biri də ilk dəfə yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin statusunun konstitusion səviyyədə təsbit edilməsi olmuşdur. Milli Konstitusiyamızın qəbulundan sonra Azərbaycanda ilk dəfə yerli özünüidarəetmə orqanı – bələdiyyələr yaradılmış və fəaliyyətə başlamışdır.

Konstitusiyaya ilk əlavə və dəyişikliklər 24 avqust 2002-ci ildə, son əlavə və dəyişikliklər isə 26 sentyabr 2016-cı ildə referendum yolu ilə edilib. 24 avqust 2002-ci ildə Konstitusiyanın 22 maddəsinə, ümumilikdə, 31, 2009-cu ilin martın 18-də keçirilən referendumla Azərbaycan Respublikası Konstitusiyanın 29 maddəsinə, ümumilikdə, 41 əlavə və dəyişiklik edilib. 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyanın 23 maddəsinə əlavə və düzəlişlər, habelə yeni 6 maddə əlavə edilib.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev bütün bu illər ərzində qanunçuluğun təkmilləşdirilməsi işində qazanılan uğurları çıxışlarının birində belə ifadə edir: ***"Keçən illər ərzində Konstitusiya humanist, dinamik və realist bir sənəd olduğunu sübut etmişdir. Onun əhatə etdiyi bütün sahələrdə – hüquqi dövlət quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqi, siyasi həyatın demokratikləşdirilməsi, insan haqlarının və azadlıqlarının təmin olunması və sair ilə bağlı mühüm irəliləyişlər baş verir".***

*Konstitusiya insan və vətəndaş hüquq və azadlıqlarının cəmiyyətin ictimai, siyasi institutlarının fəaliyyətini, dövlətin özünü idarə sistemini tənzimləyir, vətəndaş cəmiyyətinin formalaşmasının və inkişafının hüquqi təminatçısı qismində çıxış edir. Odur ki, Konstitusiyanın qəbulu çağdaş tariximizin ən mötəbər hadisələrindən biri hesab olunmağa layiqdir.*

***Naxçıvan Muxtar Respublikası***
***Ali Məhkəməsinin mətbuat xidməti***




# Turanın ilk carçısı ay-ulduzlu bayrağımız! Sən hər zaman məsud yaşa

*Yüz ildən artıq bir müddətdir ki, üçrəngli Dövlət Bayrağımız millətimiz üçün müqəddəs ideallıq rəmzinə çevrilib. Bütün mövcudluğu dövründə şəninə şeirlər yazılan, ətəyində musiqilər bəstələnən ay-ulduzlu bayrağımızı sovetlər dönəmindəki mövcud rejim başımızın üzərində dalğalanmasını, hətta kölgəsini belə qadağan etsə də, onu bütün zamanlarda ürəklərində yaşadan, çiyinlərində daşıyan istiqlal şairlərimiz, repressiya qurbanlarımız və milli öncüllərimiz oldu.*

1918-ci il 28 aprel tarixdə Azərbaycan Xalq Cümhuriyyətinin işğalından sonra bayrağımız dövlət qurumlarının üzərindən ürəklərə köçdü. Zaman-zaman bu üçrəngli bayraq milliyyətçi aydınlar tərəfindən qaldırılmanın həsrətini, Azərbaycanı ölkələr içində təmsil etməyin qürurunu, zaman-zaman isə tapdaq altında olan Qarabağda, Xudafərində dalğalandırılmağın həsrətini çəkdi. Üçrəngli, ay-ulduzlu bayrağımız ucaldıqca yaraları sağaltdı. Var oluşunda əbədilik qazandı.Üfüqlərdən baş qaldırıb boylandı! Hər gün anaların, bacıların göz yaşıyla qidalanıb, yüksəldi. Yeri yüksək, sözü yüksək bayrağımız, gələcəyin bələdçilik simvolu oldu. Üstündəki rəngləri, ulduzu və ayı ilə dünyaya meydan oxudu hər zaman!

Azərbaycan xalqı ürəyində yaşatdığı üçrəngli bayrağı zaman-zaman dalğalandırdı və bütün dünyaya göstərdi ki, Lenin və Stalinin qətliamları müstəqillik arzusunu ürəklərdən silə bilməyib. Belə oyanışlardan biri 1956-cı ildə bir qrup gənc ziyalımızın üçrəngli bayrağımızı Qız qalasının üzərində dalğalandırması ilə nəticələnmişdi. Bu gəncləri zindan həyatı, millətimizi isə oyanışın yeni dalğası gözləyirdi. Milli kimliyin qəbahətə çevrilməsinə etiraz, günahsız insan qırğınına səbəb oldu. Ağlagəlməz, mürəkkəb siyasi ambisiyaların burulğanında Azərbaycan ərazisini və müstəqilliyini ikinci dəfə yenidən itirmək təhlükəsi qarşısında qaldı. Ta ki Azərbaycanın bayraqdarı Heydər Əliyev hakimiyyətə gələnə kimi. Görkəmli dövlət xadimimiz bu konkret problemin həlli üçün bütün yolları düşündü, daşındı. Vaxtın onun xeyrinə işləyə biləcək məchulluğuna qalib gələrək addım atdı. 60-cı illərin əvvəllərində Naxçıvanı özlərinə tarixi vətən sanan mənfur ermənilərin işğal senariləri məhz Ulu Öndər tərəfindən alt-üst edildi. Bu fakta Naxçıvanın 90-cı illərdəki müdafiəsini də əlavə etsək, yəqin ki, ermənilər bunu heç bir zaman unuda bilməyəcəklər. Bu addım onun dəqiq, vaxtında hesabladığı ən böyük və düzgün addım idi. Qardaşın qardaşı döyüş meydanına səslədiyi zamanda O, xalqı köməyə çağırdı. Xilas naminə, qurtuluş naminə. Eynilə Atatürkün Sivasdan Anadolu türkləri ilə coşması və dahi Heydər Əliyevin Naxçıvandan xalqın içindən, xalqın xilası naminə atdığı addım kimi.

1990-cı il noyabrın 17-də Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə Naxçıvan Ali Məclisinin keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı muxtar respublikanın rəsmi bayrağı kimi qəbul olundu. Bu qətiyyətli tarixi addım qəlbində yurd, dövlət, dil və bayraq sevgisi gəzdirən hər bir Azərbaycan vətəndaşının sevinc müjdəçisi oldu. Dövlət Bayrağı Meydanı Şəhidlər xiyabanı kimi vətən, millət, dövlət, dil və bayraq sevgisi ilə yaşayan Azərbaycan xalqının qürur yeri, and yeri oldu. Hər bir vətən övladı çıxdığı haqq yolunda Şəhidlər xiyabanında şəhidlərin ruhuna, Dövlət Bayrağı Meydanında isə müqəddəs bayrağımıza and içdi.

Azərbaycan xalqı uzun illər sonra ilk dəfə 2020-ci ildə bu meydana aşıb-daşan sevinc, qürur hissi ilə yığışdı. Azadlıq meydanı, sözün əsl mənasında, azadlığımıza, bütövlüyümüzə, bərabərliyimizə ev sahibliyi etdi.Vətən müharibəsinin başlandığı ilk gündən etibarən iki dövlət, bir millət olaraq arxamızda dayanan, mənəvi dəstəyini heç zaman əsirgəməyən Türkiyə bu şanlı Zəfər paradımızda da öz ordusu ilə bayramlaşmağa gəldi. Bu birlik üçün hər iki dövlət bir əsr mübarizə apardı və haqq, ədalət gec-tez öz yerini tapdı.

1918-ci il sentyabrın 16-da parlaq qələbə münasibətilə Nuru Paşanın, Xəlil Paşanın, general Əliağa Şıxlinskinin, polkovnik Həbib bəy Səlimovun birlikdə addımladığı bu meydandan 102 il sonra türk və Azərbaycan Ordusunun mətin addım səsləri duyuldu. Bu qələbələr fonunda Prezident cənab İlham Əliyevin beş il əvvəl Bakıda keçirilən hərbi paradda böyük inamla dediyi sözlər xatırlanır: ***"Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan Bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".*** Və belə də oldu. 2020-ci ilin sentyabrında başlayan II Qarabağ müharibəsi zamanı işğal olunmuş bütün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalandırıldı. Ümumi türk tarixində Bayraq Zəfəri yalnız beş məşhur zəfər ilə yadda qaldı:

*1. Səlcuqlu imperatoru Alparslanın 1071-ci ildə zəfər qazandığı Malazgird döyüşü türklərə Anadolunun qapılarını açdı və türk tarixinin yeni dövrü başladı.*
*2. Osmanlı sultanı 21 yaşlı Fateh Sultan Mehmetin (Sultan II Mehmet) komandanlığı ilə 1453-cü ildə İstanbulun fəthi və orta əsrlərin sonu başa çatdı.*
*3. 1915-ci il Çanaqqala savaşı.*
*4. 1921-ci il Sakarya müharibəsi.*
*5. Və nəhayət, 2020-ci il Qarabağda Azərbaycanın haqq zəfəri.*

Bu mənada, cənab İlham Əliyevi yalnız Alparslan, Fateh Sultan Mehmet, Ənvər Paşa və Atatürklə müqayisə etmək olar. Hətta, demək olar ki, savaş üslubları, savaş ritorikaları da çox zaman üst-üstə düşüb. Sakarya müharibəsi zamanı "Səddi-müdafiə yoxdur, səddi vətən vardır", – deyən Atatürk kimi, cənab İlham Əliyev də "status-kvo yoxdur, təmas xətti yoxdur, onu biz ləğv etdik", – deyir. Dünyanın gözü qarşısında Qori düyününü qılıncla kəsdi, daşnaktsutyun, Andranik mifini darmadağın etdi. Qarabağ savaşını Egey dənizindən Qara dənizə, Qafqazlardan Parisə qədər həsədlə izləyən Paşinyana və onun pərdəarxası müttəfiqlərinə dövlət başçımızın ünvanladığı sözlər bu gün bizə Alparslanın Bizans imperatoru Romanos Diogenisə verdiyi cavabı yada salır. Bizans imperatoru Malazgird savaşından öncə Alparslana xəbər göndərir ki, "Biz İsfahanda qışlayarıq, atlarımız da Həmədanda..." Səlcuq imperatorunun cavabı lakonik olur: "Atlarınız Həmədanda qışlaya bilər, fəqət özünüzün harada qışlayacağınızı yalnız Tanrı bilir". II Qarabağ müharibəsi nəticəsində Bakıda "şütümək" iddiasında olan düşmən texnikaları Azərbaycanın Hərbi Qənimətlər Parkında sərgiləndi, özləri isə…

*Vətən tarixində ən qiymətli, ən ülvi və ən pak hisslərdən biri bayraq sevgisidir. Bayraq bütün ölkələrdə dövlət başçısından tutmuş sıradan vətəndaşa qədər hər kəsdən öndə və ucada duran müqəddəs varlıqdır. Bayraq Azərbaycan üçün yurd, dövlət və dil qədər müqəddəsdir. Bu səbəbdəndir ki, Prezident Konstitusiyamıza və müqəddəs "Quran"a əl basaraq and içdikdən və diz çöküb bayrağı öpdükdən sonra vəzifəsinin icrasına başlayır. Bayraq unudulmazların baş tacı, zəfər müjdəsi, şəhidlərin məskən yeri, anaların təsəllisidir. Həsrətlə gözlədiyimiz, qucaqlayıb qaldırdığımız, qollarımıza güc olan kimlik təcəssümüdür. Mənlik, həmrəylik simvoludur. Oğulların axıtdığı qan, anaların "oğul", – deyərək qucaqlayıb-sığal çəkdiyi oğuldu bayraq. Yetim qalan uşaqların öpüb əziz saxladığı min arzu, min xəyaldır. Rəngləriylə gələcəyə ümid çırağıdır.*

Dövlət Bayrağımızı səciyyələndirən Ulu Öndər Heydər Əliyev deyirdi: ***"Azərbaycan Bayrağı, sadəcə, bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin".***

And yerimiz – bayrağımız. Səndə neçə-neçə oğulların ruhu yatır, yazılan əsərlərin, şeirlərin gücü yatır. Başdan-ayağa haqlanmısan, haqq işığını bütün dünyaya sən salmısan! Zəfərdən doğulmuş, hürr yaşamış, hürr qalacaqsan! Azərbaycan torpağına məskən salan, kök olansan. Düşmənlərə gözdağı, ürək yarasısan! Qulaqlarda cingildəyən "Bir kərə yüksələn,bir daha enməz!" səsisən, Sən şərəf təmsilçimiz, kimliyimizin təcəssümüsən. Günün mübarək olsun! Yaşını yenidən tarixə qatıb, tarix olan, qədimləşən bayrağımız!

# İsveçli rejissor Naxçıvan və İrəvanla bağlı film çəkəcək

*Noyabrın 7-də isveçli fotoqraf və sənədli film rejissoru Mikael Silkeberq Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Qonaq səfər çərçivəsində Naxçıvanın tarix və mədəniyyət abidələri – "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi və Əlincəqala tarixi abidəsi, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, Heydər Əliyev Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Naxçıvan Dövlət Rəsm Qalereyası ilə tanış olub, çəkilişlər aparıb.*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində keçirilən görüş zamanı mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən Seyidovla Naxçıvan mədəniyyətinin inkişafı və kino sahəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb, yeni layihələr barəsində danışılıb. Rejissor bildirib ki, Naxçıvan və İrəvanla bağlı film hazırlanacaq. Həmçinin İsveç Krallığında muxtar respublika ilə bağlı fotoşəkillərdən ibarət sərgi təşkil olunacaq.

Sonra Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Mikael Silkeberqin müəllifi olduğu "Xarıbülbül əfsanəsi" sənədli filminə baxış olub. Filmin nümayişindən əvvəl çıxış edən Həsən Seyidov Azərbaycan xalqı üçün əlamətdar bir tarixdə – Zəfər Günü ərəfəsində "Xarıbülbül əfsanəsi" sənədli filminin təqdimatının keçirilməsinin olduqca önəmli bir addım olduğunu bildirib.

Sonra müəllif "Xarıbülbül əfsanəsi" sənədli filminin ərsəyə gəlməsi barəsində danışıb.



Diqqətə çatdırıb ki, müxtəlif dillərə tərcümə olunaraq dünyanın 100-dən artıq ölkəsində nümayiş olunan ekran əsərinin çəkilişlərinə Vətən müharibəsindən sonra başlanılıb. Xarıbülbül barəsində eşitdiyi əfsanələr, Xan qızı Natəvanın poeziyası, Qarabağın bülbül səsli xanəndələri "Xarıbülbül əfsanəsi" sənədli filminin ərsəyə gəlməsinə rəvac verib. Filmdə xarıbülbülün vətəni Şuşanın tarixi, mədəniyyəti, incəsənəti, görkəmli şəxsiyyətləri barəsində danışılır. "Xarıbülbül əfsanəsi" filmi izləyicilər tərəfindən maraqla qarşılanıb.

İsveçli fotoqraf və sənədli film rejissoru Mikael Silkeberq "Şərq qapısı" qəzetinə müsahibə verib: " İlk dəfə mən Qarabağa gələndə "Xarıbülbül" simvolunu gördüm və uşaq vaxtı oxuduğum Hans Xristian Andersenin "Bülbül" hekayəsini xatırladım. Həmçinin bu əsərdə Şərqin bazarı və bütün gözəl simvolları əks olunub. Mən bura gələndə xanəndə Bülbül haqqında öyrəndim və mənə bildirdilər ki, o uşaq vaxtı elə bülbül kimi cəh-cəh vururmuş. Sonra böyük şairə Natəvanın poeziyası ilə yaxından tanış oldum və əmin oldum ki, onun da poeziyasının ana xəttində hər zaman bülbül mövzusu əsas olub. Natəvanı oxuyarkən oğlu Abbasa həsr etdiyi şeirə rast gəldim. Bu şeir çox mükəmməl və dramatik şeirdir. Burada ananın oğula ülvi məhəbbəti əks olunub. Biz tarixə baxıb İpək yolunu nəzərdən keçirəndə orada olan bütün xalqların mədəniyyətlərini və simvollarını görürük. Ümumiyyətlə, mən Azərbaycanı öyrənəndə gördüm ki, Azərbaycan özündə bir neçə dini, həm də mədəniyyəti ehtiva edən bir ölkədir. Ona görə də mən bura gələndə özümü öz ölkəmdəki kimi hiss edirəm. Və buradan da "Xarıbülbül əfsanəsi" filminin ideyası yarandı. Şuşaya səfər edib orada "İsa bulağı"nı gördükdə məni, həqiqətən, heyrət bürüdü ki, burada belə bir gözəl bulaq var . Azərbaycan xalqı bu bulağı nə qədər çox sevir. Mənim üçün bu gözlənilməz hadisə idi.

Naxçıvan təəssüratlarını bölüşən fotoqraf bildirdi ki, bu qədim diyarda olarkən onda tamamilə başqa təəssürat formalaşıb. İsveçli fotoqraf dedi: "Naxçıvana gələndə keçirdiyim hissləri Şuşada da olarkən keçirmişdim. Əshabi-kəhf, Əlincə qalası məni heyrətləndirdi. Dünyanın bir çox yerində çəkiliş aparmışam. Ancaq Əshabi-kəhfdə sanki fərqli bir işıq var idi. Oranı ziyarət zamanı o tarixə şahid olmaq, o insanların 309 il orada yatdığını eşitmək qəlbimi riqqətə gətirdi. Mən orada "Cənnət bağı"na çıxdım və yuxarı baxarkən mələk gördüm və hələ də özümə gələ bilmirəm".

**Fariz ƏHMƏDOV**

# Beynəlxalq Mühasiblər Günü qeyd edilib



Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü və 10 Noyabr – Beynəlxalq Mühasiblər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin təşkilatçılığı əsasında Beynəlxalq Mühasiblər Günü qeyd edilib.

Tədbirdə mərkəzin direktoru Mehriban İmanova, mərkəzin əməkdaşı Aytən Mənsumzadə çıxış edərək Ulu Öndər Heydər Əliyevin ölkənin iqtisadi inkişafındakı xidmətlərindən, mühasibat uçotunun və mühasib peşəsinin vacibliyindən danışıblar.

Türkiyə Respublikasından onlayn olaraq tədbirə qoşulan peşəkar mühasib İsmayıl Tekbaş çıxış edərək kosmik iqtisadiyyatın mühasibat elminə, peşəsinə təsiri və kosmos mühasibatlığı haqqında geniş məlumat verib.

Sonda mühasiblər plaket, sertifikatlarla təltif ediliblər.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 654